| Xəstəlik sinifi (XBT-10) | L- Dəri və dərialtı toxumanın xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **L30.9** | Dəqiqləşdirilməmiş dermatit |

| Müalicə |
|---|

Topik müalicə:

Hər hansı bir dental və ya digər infeksiya ocağı müalicə edilməlidir.

Yerli terapiyaya kəskinləşmələrin müalcəsi və profilaktika məqsədi ilə təyin edilən dəstəkləyici müalicə daxildir.

Dərinin və zədələnən sahələrin yumşaq təsirli maye ilə müntəzəm olaraq yuyulması məsləhət edilir.

Əsas topikal məlhəmlərin təyini və xüsusən dəri yuyulduqdan dərhal sonra müntəzəm olaraq tətbiq edilməsi, kəskinləşmələrin sayının azaltdığını göstərir.

Əgər səpkilərdə islanma (su vermə) müşaidə olunursa, qlukokortikoid kremləri ilə birlikdə nəmliyi götürən sarğı müalicəsi tətbiq oluna bilər.

Orta təsirə malik və ya güclü qlükokortikoid kremləri uzunmüddətli müalicə üçün tətbiq edilir: məs.  gündə1 dəfə, (gecə vaxtı sürtülür) 2-3 həftə, sonra isə 1-2 ay ərzində həftədə bir və ya iki dəfə bu kremlərdən istifadə edilir.

Antiseptiklərin / mikrob əleyhinə maddələrin və  hər hansı bir qlükokortikoidin kombinasiyasını da sınamaq olar.

***Takrolimus (Tacrolimus)*** kremi, xüsusən də atopik şəxslərdə nummulyar dermatitin müalicəsində potensial olaraq effektivdir.

Sistem müalicəsi

Nummulyar dermatitdə mikrob əleyhinə preparatlara çox nadir hallarda ehtiyac duyulur.

Əgər dermatitdən ikincili infeksiya qaynaqlanırsa, mikroblara qarşı sistem preparatları təyin edilə bilər: məsələn ***Sefaleksin (Cefalexin)*** 500 mq, gündə üç dəfə; 7-10 gün ərzində.

Mikrob əleyhinə preparatlar birinci xətt müalicəsi deyildirlər və yerli müalicəni əvəz etmirlər.

Oral qlükokortikoidlər kəskinləşmələr zamanı qısa müddətli müalicə üçün verilə bilərlər: məsələn, ***Prednizolon (Prednisolone)*** təyin edilir- 20-40 mq, 1-2 həftə (səhərlər). Kəskin vezikulyar dermatitlərə qarşı xüsusilə effektivdir, lakin xroniki dermatitdə heç bir faydası yoxdur.

Qaşınmaya görə qeyri-sedativ antihistamin preparatlar vermək olar və ya gecələr sedativ təsirə malik histamin əleyhinə preparatları qəbul etmək olar, məsələn, ***Hidroksizin (Hydroxyzine)*** 25 mq, gündə bir və ya iki dəfə.

**Ədəbiyyat**

**Nummulyar dermatit**

**Məqalənin son yenilənmə tarixi: 15.02.2021**

[**https://ebmg.az/article/content/802**](https://ebmg.az/article/content/802)